Kitabın adı: Kəramət sahibləri Mövzu: Əxlaq Müəllif: Əbdürrəhman Baqirzadə Babuli

«ÖLÜ YENİDƏN DİRİLİR»

Ayətullah Cəzayiri (Müfti Seyyid Təyyib) deyir:

Mən Pakistanda, xüsusilə də Pəncab məntəqəsində, Əhli-beytsevərlərin evlərinin üstündə bayraq görürdüm ki, üzərində "Ya Abbas" yazılmış və Həzrət Əbülfəzl bayrağı adı ilə məşhur idi. Bu işin fəlsəfəsi mənim üçün aydın olmadığından, onlardan təqlid etməyə hazır deyildim. Amma zaman keçdikcə onun xeyir-bərəkətini görürdüm. Mən də Nəcəf- Əşrəfdəki mənzilimdə bu bayrağı (pərçəmi) taxdım. Əlhəmdülillah, indiyə qədər ki, mənzilim Qum şəhərindədir, bu bayraq mənim evimin üstündədir və mən çoxlu fövqəladə kəramətlərini müşahidə etmişəm.

O cümlədən, Nəcəf-Əşrəfdə olduğum bir vaxtda, günlərin birində uşaqlarımdan biri ki, böyük qızım idi, güclü ishal olmuşdu. Mən çox ciddi yanaşmayıb, öz-özümə dedim ki, yəqin istidən olub. İnşallah cüzi dərmanlarla yaxşı olub keçər.

Günortadan sonra evə qayıdanda, anası dedi: Qıza bax, halı çox pisdir. Gərək onu həkimə aparaq. Elə bu vaxt qızım ayağa qalxıb, ayaqyoluna getmək istəyəndə, addım ata bilməyib yerə yıxıldı. Gözlərini yumdu və ağzı qıfıllandı. Nəbzi də vurmurdu.

Tez evin damına qalxıb Həzrət Əbülfəzlin bayrağını gətirib qızın başı üstə sərdim. O Həzrəti adıyla çağırmağa başladım. O biri uşaqlarıma da dedim ki, siz də Abbas, Abbas deyib, çağırın.

Hamımız qışqırırdıq:

Ey Abbas, ey Abbas! Mən gah ey Abbas deyir, gah da xəstə qızımın adını çağırırdım.

Birdən gördüm ki, xəstə qızımın bədəni titrədi və gözlərini açdı.

Soruşdum:

Necəsən? Dedi:

Yaxşıyam. Bundan qabaq elə bilirdim ki, dərin bir quyuya düşürəm və sizin səsiniz də uzaqdan gəlirdi ki, məni çağırırsınız. Həmin vaxt gördüm ki, bir şəxs əlini uzadıb məni tutdu və həmin qaranlıq quyudan çıxartdı.

Bu əhvalatdan sonra, uşağın yaxşılaşmasına baxmayaraq, ehtiyat üçün onu xəstəxanaya apardıq. Orada qan analizi verdikdən sonra dedilər ki, zəhərlənibmiş, indi gərək xəstəxanada yata.

Mən uşağın anasına dedim:

İndi ki, Həzrət Abbas ona şəfa verib və halı da yaxşıdır, niyə onu xəstəxanada yatırdaq? Evə gəldik və qızımın halı lap yaxşılaşdı.

«NAMAZI NİYƏ TƏK QILDIN?»

Günlərin bir günü Seyyid Rəzi namazda qardaşı Seyyid Murtəzaya iqtida etdikdən sonra birdən, namaz əsnasında fürada (tək) niyyəti ilə camaat namazından ayrılaraq namazını tək qıldı. Onlar evə qayıtdıqdan sonra Seyyid Murtəza qardaşından anasına gileyləndi. Anası Seyyid Rəzini məzəmmət edib danladıqda Seyyid Rəzi belə dedi:

Namazı ayrılıb tək qılmağımın səbəbi var idi. Namaz əsnasında birdən gördüm ki, qardaşım bütünlüklə qadın qanına qərq olub. Mən bu halı görəndə bərk heyrətləndim və çarəsiz qalıb namazımı ayrı qıldım.

Seyyid Murtəza qardaşının dediklərini təsdiqləyib dedi:

Məscidə gedərkən yolda bir qadın heyz məsələsi ilə bağlı məndən bir sual soruşdu və o səbəb oldu ki, namaz əsnasında yadıma düşməklə fikrimi məşğul etsin. [1]

«ZAMANDA SEYR»

Mərhum Mühəddis Nuri "Mustədrəkül-vəsail" kitabında tanınmış alim Seyyid Hüseyn Qəzvinidən belə nəql edir:

955 -ci hicri ili (Birinci Şəhidin şəhadətindən 179 il sonra) yuxuda gördüm ki, Cəzzin qəryəsində, yəni "Birinci Şəhid" ləqəbiylə məşhur olan Şeyx Şəmsəddin Məhəmməd ibn Məkkinin (vəfatı 786 q.) kəndindəyəm. Şeyxin evinə gedib qapını döydüm. Şeyx özü qapını açdı. Mən ondan xahiş etdim ki, Şeyx Cəmaləddin ibn Mütəhhər Əllamə Hillinin ictihad haqqında yazdığı kitabı mənim üçün gətirsin. Evə daxil olub həmin kitabla birgə zənnimcə, hədislərə aid başqa bir kitabı da gətirib mənə verdi.

Yuxudan oyandığım zaman gödüm ki, o iki kitabın ikisi də yanımdadır. [2]

«NURLA BİRGƏ»

Müqəddəs Ərdəbilinin təqvalı, inanılmış və etibarlı şagirdlərindən biri belə hekayət edir:

Həzrət Əlinin (ə) hərəminin həyətində kiçik bir hücrəm vardı. Gecələrin birində mütaliəni başa vurub hücrədən çölə çıxdım. Gördüm ki, bir şəxs hərəmə yaxınlaşır. Öz-özümə dedim: Bəlkə, oğrudur. Beləcə yavaş-yavaş ardınca düşdüm, belə ki, mən onu görür, o isə məni görmürdü. Gəlib hərəmin qapısının qarşısında dayandı. Birdən qıfıl yerə düşdü və qapı açıldı. Ardınca ikinci qapı da açıldı. O şəxs zərihə yaxınlaşıb salam verdikdə qəbirdən salamın cavabını eşitdim. Səsindən tanıdım ki, öz ustadımdır. Sonra o İmamla (ə) danışmağa başladı. İmamdan (ə) elmi bir məsələ haqda nə isə soruşurdu. Sonra hərəmdən çıxıb şəhərdən xaric oldu və Kufə məscidinə tərəf yollandı. Mən də dalınca getdim. O, hələ də məni görmürdü. Kufə məscidinin mehrabına yaxınlaşdığım zaman səsini eşitdim ki, bir şəxsə həmin məsələ haqda danışır.Sonra oradan çıxıb Nəcəfə yollandı. Mən də arxasınca yola düşdüm. Nəcəfin darvaza qapısına çatanda artıq səhər açılırdı. Amma o, hələ də məndən xəbərsiz idi. Ona yaxınlaşıb dedim:

Mən əvvəldən axıradək sizinlə idim. Hərəm və Kufə məscidində sizinlə danışanın kim olduğunu mənə söyləyin. O, mənimlə əhd kəsdi ki, sağlığında bu haqda heç kimə bir söz deməyim. Sonra belə dedi:

Ay oğul, bəzən məsələlərin düz və ya səhv olması məndə şübhə yaradır. Buna görə də, çox vaxt, gecələr Həzrət Əlinin (ə) qəbri üstə gedib həmin məsələni İmamdan soruşuram və o da cavab verir. Bu axşam o həzrətdən bir məsələni soruşdum. Həzrət Əli (ə) məni İmam Mehdinin (ə) yanına göndərdi. Dedi ki, bu gecə övladım Mehdi (ə) Kufə məscidində olacaq. Onun hüzuruna gedib bu məsələni ondan soruşarsan. Kufə məscidində gördüyün o şəxs İmam Mehdi (ə) idi. [4]

Tanınmış İslam alimlərindən olan mərhum Seyyid Nemətullah Cəzayiri (vəfatı 1112 q.) belə yazır:

Böyük məqam və kəramət sahibi olan cəddim Seyyid Şəmsəddinin bir inəyi var idi ki, həmişə çöllükdə otlayardı. Günlərin birində inək çöllükdə otladığı vaxt birdən yırtıcı bir heyvan (şir) ona hücum etdi. İnək ağır yaralandığından öldü. Amma o yırtıcı heyvan inəyin ətindən yeməyib onun yanında dayanmışdı.

Seyyid bu xəbəri eşidəndə inəyi bağladığı ipi görürüb şirin sorağınca getdi. Camaat da Seyyidin ardınca getdilər. Seyyid ipi şirin boynuna salıb evinə gətirdi. Camaat bu səhnədən heyrətə gəlmişdilər. O, şiri bir gecə saxlayandan sonra dedi:

İstəyirəm inəyimin əvəzinə yer şumlamaq üçün xışı ona bağlayım. Amma camaat şirdən qorxduğu üçün Seyyid onu azad etdi. [10]

«GET QÜSUL AL»

Mərhum Seyyid Zeynəlabidin Lahici belə hekayət edir:

Atam deyirdi ki, biz Nəcəfdə olduğumuz vaxt Ayətullah Məhəmməd Baqir Behbəhaninin (vəfatı 1205) hüzurunda dərs oxuyurduq. Ayətullah Behbəhani çox qoca olduğundan kütləvi tədrisdən əl çəkərək bütün istidlali dərslərin tədrisini öz şagirdlərinə tapşırmışdı. Özü isə ancaq "Şərhi-lümə" kitabından dərs deyirdi. Mən hələ istidlal qüvvəm olmadığım üçün ustadın dərslərində iştirak edirdim.

Günlərin birində möhtəlim oldum və sübh namazım da qəzaya getdi. Bir tərəfdən dərsin vaxtı da gəlib çatdı. Öz-özümə dedim: Namazım əlimdən çıxdı və əgər hamama da getsəm dərsə çatmayacağam. Yaxşısı budur, dərsə gedim və dərsdən sonra qüsul alaram.

Dərsə getdim. Amma ustad Behbəhani hələ gəlib çıxmamışdı. Bir az keçəndən sonra ustad gəldi və xoşhal idi. Oturub ətrafa nəzər saldıqdan sonra birdən, narahat oldu. Sonra dedi:

Bu gün dərs deməyəcəm. Tələbələr bunu eşidəndən sonra dağılışdılar. Mən durub getmək istəyəndə, mənə dedi:

Otur. Bir az keçəndən sonra ara sakitləşdi. Ayətullah Behbəhani dedi:

Oturduğun yerdə xalçanın altında bir miqdar pul var. Götür onu, get qüsul al və bundan sonra cənabətli halda belə məclisdə oturma.

Onun bu sözləri məni yaman təəccübləndirdi. Əlimi xalçanın altına salıb pulu götürəndən sonra, hamama gedib, qüsul aldım. Beləliklə, bu bir kəraməti o mərhumdan özüm müşahidə etdim. [12]

«CAMALIN HEYRANI»

Əllamə Seyyid Mehdi Bəhrul- Ülumun (vəfatı 1212 q.) yaxınlarından biri belə deyir:

İmam Hadi (ə) ilə İmam Həsən Əsgərinin (ə) hərəmində Əllamə Bəhrul-Ülum ilə birlikdə camaat namazı qılırdıq. Mərhum Əllamə təşəhhüdü deyib bir az dayandı və ondan sonra ayağa qalxdı. Namazdan sonra orada olanların hamısı təəccüb içindəydilər. Amma heç kəs bir şey soruşmağa cürət etmirdi. Evə qayıdandan sonra yemək süfrəsi açıldı. Seyyidlərdən biri mənə dedi ki, Əllamədən həmin hadisənin sirrini soruşum.

Seyyid Əllamə Bəhrul-Ülum bizim pıçıltı ilə danışdığımızı görüb (başa düşərək) dedi:

Nə haqda danışırsınız? Aralarında hamıdan cürətli mən olduğum üçün, dedim:

İstəyirlər ki, namazda sizdə baş verən halın sirrini bilsinlər. Əllamə dedi:

Həzrət Sahibəzzaman (ə) atasının qəbrini ziyarət etmək üçün hərəmə daxil olarkən o həzrətin nurlu camalını gördükdə, məndə o hal baş verdi. [14]

«MİRZƏNİN KƏRAMƏTİ»

Mərhum Ayətullah hacı şeyx Aştiyani belə hekayət edir:

Günlərin birində Qum şəhərinin qəbiristanlığında mərhum Mirzə Quminin (vəfatı 1231 q.) qəbrinin kənarında yaşlı bir kişi gördüm. Əsli Qəzvindən idi və ev-eşiyini buraxıb qəbirin kənarında etikaf saxlamışdı. O, Quran təlavət edir və gözlərindən arasıkəsilmədən yaş tökürdü. Ondan belə narahat və qəmgin olmasının səbəbini soruşanda dedi:

Mən Mirzəni çox gec tanıdığım və tez də itirdiyim üçün bu cür təəssüflənirəm. Soruşdum:

Onunla necə və harada tanış olmuşdun? Dedi:

Ey əziz dost! Mənim əslim Qəzvindəndir. Bu böyük şəxsiyyətin vəfatından iki il öncə dəniz yolu ilə Həcc səfərinə getmişdim. Günlərin birində müsafiri olduğumuz iki təbəqəli gəminin alt təbəqəsində bir küncə çəkilib kisəmdəki pullarımı saymağa başladım. Elə bu zaman gəminin yuxarı təbəqəsində birinin məni pusduğunu gördüm. Həmin şəxs mənim pul kisəm və içindəki pullara diqqətlə baxırdı. Pul kisəsini yenidən kəmərimə bağlayıb öz yerimdə oturdum.Bir saatdan sonra gəminin yuxarı təbəqəsində hay-küy qalxdığını gördüm. Soruşdum ki, nə olub? Dedilər, müsafirlərdən biri hay- küy salıb ki, filan nişan və əlaməti olan pul kisəmi oğurlayıblar. İndi isə gəminin kapitanı tərəfindən bir qrup, müsafirlər arasında təftişə başlayıb və qərara alınıb ki, əgər oğrunu tapsalar, dənizə atsınlar. Deyilənlərə diqqətlə qulaq asanda gördüm ki, həmin adam mənim pul kisəmin nişanələrini deyib. Mən pullarımı sayanda, o bütün nişanələri yadda saxlayıbmış.

Çox pis vəziyyətə düşdüm. Bütün var-yoxum, abır-heysiyyətim və canım xətərdə idi. Nə qədər fikirləşdimsə, pulumdan keçib abrımı və canımı qorumaqdan başqa çıxış yolu tapmadım. Elə buna görə də pul kisəmi kəmərimdən açıb, Həzrət Əliyə (ə) xitab edərək dedim:

Əlican! Sən Allahın əmanətdar bəndəsi, mən isə pənahsız quluyam. Götür pul kisəmi, sənə tapşırıram − deyib onu dənizə atdım. Tez qayıdıb öz yerimdə oturdum.Amma qəm-qüssəyə qərq olmuş halda fikirləşirdim ki, pul-parasız səfərimi necə davam etdirəcəyəm. Elə bunu fikirləşirdim ki, təftiş qrupu həmin bədxislətli adamla içəri girib, üst-başımı diqqətlə yoxlamağa başladı. Kapitan yalandan iddia edən şəxsə dedi:

Biz gəminin bütün müsafirlərini və onların bağlamalarını yoxladıq. Amma sən nişanələrini verdiyin şeyi tapmadıq. Niyə bu Allah bəndələrinə, "Beytullah" zəvvarlarına töhmət vurursan? O yalançı kişi yerində quruyub qaldı və üzünün rəngi bütünlüklə dəyişdi. Çoxları başa düşdü ki, o yalançı və oğrudur. Beləliklə həmlə edib, onu öz cəzasına çatdırdılar. Amma bunun mənə heç bir faydası yox idi, çünki mən pul kisəmi içi dolu pulla birlikdə dənizə atmışdım.

Özümü çox böyük çətinliklə Məkkəyə çatdırdım. Həcc mərasimini yerinə yetirəndən və Mədinədə Peyğəmbər (s) qəbrini ziyarət edəndən sonra İraqa yollandım. Ora çatan kimi əvvəl Əlinin (ə) hərəminə gedib, ərz elədim: Ey sərvərim! Dənizdə sizə tapşırdığım pul kisəsinə indi çox ehtiyacım var. Lütf edib onu mənə qaytarın − deyib ağladım. Həmin axşam yuxuda Həzrət Əlini (ə) gördüm ki, mənə dedi:

Quma gedib pul kisəni Mirzə Qumidən təhvil alarsan. Yuxudan ayılanda çox təəccübləndim. Öz- özümə dedim: Mən pul kisəmi Omman dənizinə atmışam. İndi mən onu Qumda, Mirzə Əbulqasim Qumidən necə istəyim. Axı mən o şəxsi tanımıram və bilmirəm kimdir.

İkinci gün yenə Əlinin (ə) hərəminə gedib pul kisəmi həzrətin özündən istədim. Həmin axşam yenə Həzrət Əlini (ə) yuxuda gördüm və birinci gün yuxuda eşitdiklərimi yenidən eşitdim.

Üçüncü gün bir daha olaraq hərəmə yollandım və gecə həmin yuxunu gördüm. Həzrətə dedim:

Ey sərvərim! Axı, mən Mirzə Qumini tanımıram. Buyurdu:

O çox tanınmış adamdır, (mərcə təqliddir) müctəhiddir. Dedim:

Ağa, axı mən özümü Quma necə çatdırım? Mən "Beytullah" səfərimi çox çətinliklə başa çatdırmışam və indi heç nəyim yoxdur. Həzrət dedi:

Bazarda bu ünvana get və 20 lirə filan sərrafdan alıb qayıdarsan.

Yuxudan ayıldım. Həmin gecənin səhəri bazara getdim. Deyilən ünvan üzrə o sərraf kişini tapdım. O məni çox yaxşı qarşılayaraq dedi:

Mənimlə bir işin var? Dedim:

Bəli! Yolxərcim sizə tapşırılıb. Dedi:

Nə qədərdir. Dedim:

20 lirə. O, həmin məbləği mənə verdi. Səfər xərcimin düzəlməsinə görə çox şad idim. Bir az sovqat alıb Quma yola düşdüm.

Qum şəhərinə çatdıqdan sonra Mirzə Quminin mənzilini soraqlaya-soraqlaya gəlib tapdım. Mənzilə daxil olduğum zaman Mirzə dərs tədris edirdi. Dərs qurtarıb, şagirdlər gedəndən sonra məni çağırıb soruşdu: Mənimlə işiniz vardı? Dedim:

Bəli. Dedi:

Buyurun. Mən bütün olub- keçənləri əvvəldən axıracan ona nəql etdim. Mənə ürək- dirək verib dedi:

Pul kisən hazırdır. Özü pul kisəsini gətirib dedi:

Yaxşı-yaxşı bax, gör hər şey yerindədirmi? Pul kisəsini alıb gördüm, əcəba! Odur! Açıb içinə baxanda gördüm ki, pulları dənizə atmamışdan qabaq səliqəylə yığdığım kimidir. Sevindiyimdən o böyük şəxsi qucaqlayıb öpməyə başladım. Onunla sağollaşıb Qəzvinə qayıtdım.

Günlərin bir günü arvadım mənə dedi:

Eşidəndə ki, yolda pullarını itirmişdin, çox narahat oldum. Dedim:

Bəli və başıma gələnləri hamısını əvvəldən axıracan ona danışdım. Amma o, inana bilmirdi və mən and içəndən sonra qəbul etdi. Bu zaman dedi:

Ay Allahın bəndəsi, bəs niyə görə Qum şəhərini və o cür böyük şəxsiyyəti buraxıb gəldin?

Ona xidmət etmək, mənəviyyət və kamal kəsb etmək üçün niyə orada qalmadın? İndi isə qalx, birgə o ruhani alimin hüzuruna gedək.

Arvadımın təşviqiylə hər nəyimiz vardısa satıb, ailə üzvlərimlə birlikdə Qum şəhərinə gəldik. Amma əfsus ki, Qum şəhərinə daxil olanda şəhəri Aşura günündə olduğu kimi qəm-qüssə içində gördük. Soruşdum:

Nə olub? Dedilər:

Rəbbani alim Ayətullah Mirzə Qumi vəfat edibdir.Onun yoxluğunun çox ağır itki olduğunu və hamı üçün əziz olan bir şəxsiyyəti itirdiyimi hiss etdim. Elə ona görə də, o zamandan özümlə əhd-peyman bağladım ki, ömrümün sonuna qədər gecə-gündüz onun nurlu qəbrinin yanında qalıb və ruhunun şad olması üçün Quran tilavət edəm (oxuyam). [20]

Həmin şəxs nəql etdiyi başqa bir hekayətdə belə deyir:

Mirzənin evinin qapasına çatanda, onun xadimi dedi:

Ağa yatıb. Bir az gözlə, yuxudan qalxar, sonra: Dedim:

Mən bu şəhərdə qəribəm və uzaq yoldan gəlmişəm. Xadim narahat halda dedi:

Onda özün qapını döy. Qapını döydükdə, içəridən Mirzənin səsi gəldi:

Ay filankəs, gəldim! Mən çox təəccübləndim ki, Mirzə mənim adımı haradan bilir. Bu zaman qapı açıldı və Mirzə əbasının altından ağzı bağlı pul kisəmi çıxarıb dedi:

Pul kisəni götür və öz şəhərinə qayıt. Nə qədər ki, mən sağam, bu əhvalatı heç kimə danışma. [21]

«ÇOX QÜRURLANMA»

Şeyx Ənsarinin şagirdlərindən biri belə deyir:

İbtidai dini təhsilimi başa vurduqdan sonra elmimi təkmilləşdirmək üçün Nəcəf- Əşrəfə yollandım və Şeyxin dərslərinə qatıldım. İlk vaxtlar onun dərslərindən bir şey anlaya bilmirdim. Nə qədər səy etsəm də faydası olmayırdı.

Nəhayət bir gün həzrət Əmirəlmömininə (ə) mütəvəssil oldum. Axşam yuxuda gördüm ki, Həzrətin hüzurundayam. Əli (ə) mənim qulağıma "Bismillahir- Rəhmanir-Rəhim"i oxudu.

Səhəri gün dərsə gələndə artıq dərsi başa düşürdüm. Yavaş-yavaş dərslərimdə irəliləyiş olmağa başladı. Bir neçə gündən sonra artıq sinifdə mən də dərs haqqında öz fikrimi söyləyirdim.

Bir gün dərsdə Şeyxlə çoxlu bəhs edib, səhv tuturdum. Həmin gün dərs qurtarandan sonra Şeyxin hüzuruna getdim. O yavaşca qulağıma pıçıldayıb dedi:

Sənin qulağına "Bismillah"ı oxuyan mənim qulağıma "Vələzzalin"ə qədər oxuyub. O bunu deyib getdi. Mən bu işdən çox təəccübləndim və başa düşdüm ki, Şeyx kəramət sahibidir. Çünki o vaxta qədər yuxumu heç kimə danışmamişdim.